

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 218 (24.355)

*24 noyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçanı qəbul edib.

Azərbaycanın 1993-cü ildə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasına üzv qəbul olunduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan bu Komissiya ilə ətraf mühitin mühafizəsi, nəqliyyat, gömrük, enerji, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi və digər sahələrdə uğurlu əməkdaşlıq edir.

Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərinin ölkəmizdə Azərbaycanın sədrliyi ilə təşkil olunan beynəlxalq tədbirlərdə iştiraklarını məmnunluqla qeyd etdi.

SPECA Zirvə görüşünün Bakıda keçirilməsinin Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın hərtərəfli və dinamik surətdə inkişafının bariz nümunəsi olduğunu deyən Prezident İlham Əliyev vurğuladı ki, SPECA-nın üzvü olan dövlətlər sıx əməkdaşlıq nəticəsində uğurlu regional model təqdim edirlər.

Dəvətə görə təşəkkürünü bildirən Tatyana Molçan Azərbaycanın SPECA-ya uğurlu sədrliyini vurğuladı.

Görüşdə Mərkəzi Asiya ölkələri ilə nəqliyyat imkanlarının artırılması, Orta Dəhlizin əhəmiyyəti, Azərbaycanın ölkəmizdə və qonşu ölkələrdə nəqliyyat infrastrukturunun inkişafına yatırdığı investisiyalar məmnunluqla qeyd edildi. Bu baxımdan BMT-nin Avropa üzrə İqtisadi Komissiyası ilə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu.

## Prezident İlham Əliyev BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi xanım Armida Salsiya Alişahbananı qəbul edib.

Armida Salsiya Alişahbanan BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümündə Azərbaycanda Zirvə görüşünün keçirilməsinin əlamətdar hadisə olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz 1992-ci ildə BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv olub və Azərbaycanın bu təsisatın əksər üzv dövlətləri ilə yüksək səviyyədə siyasi münasibətləri var.

Xüsusilə nəqliyyat, rəqəmsallaşma, enerji sahələrində və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün UNESCAP-ın vacib platforma olduğunu bildirən Prezident İlham Əliyev UNESCAP və SPECA regionları arasında gələcək əməkdaşlıq imkanlarının da mümkünlüyünə toxundu.

Söhbət zamanı ölkəmizin UNESCAP çərçivəsində Trans-Asiya dəmir yolu Sazişi şəbəkəsi, Asiya quru limanları üzrə hökumətlərarası Saziş və digər hökumətlərarası sazişlərdə iştirakı məsələsi qeyd edildi.

Görüşdə ölkəmizlə UNESCAP arasında əlaqələrin genişləndirilməsi və bu təsisatın müvafiq iclaslarının Azərbaycanda keçirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresi öz işinə başlayıb





Noyabrın 23-də Naxçıvan şəhərində “Qərbi Azərbaycana qayıdış” adlı festival və “Qərbi Azərbaycana qayıdışa gedən yol” adlı konqres öz işinə başlayıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən festival-konqresin iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüb, xatirəsinə ehtiramlarını bildiriblər.

Heydər Əliyev Muzeyində olan ziyarətçilərə görkəmli dövlət xadiminin zəngin, çoxşaxəli siyasi irsi və mənalı ömür yolundan bəhs edən eksponatlar barədə məlumat verilib.

Sonra Naxçıvan Dövlət Milli Dram Teatrında “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresinin açılış tədbiri keçirilib.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Sonra Qərbi Azərbaycana məxsus folklor nümunələrindən ibarət kompozisiya və videoçarx nümayiş etdirilib.

“Qərbi Azərbaycana qayıdış” festival-konqresin açılışı münasibətilə tədbir iştirakçılarını salamlayan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, bu gün xalqımız öz tarixinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edib. Uzun illər gizli saxlanılan, zaman-zaman təhrif edilmiş hadisələr özünün əsl mahiyyətini və qiymətini alır. Sözsüz ki, bunun ən mühüm səbəblərindən biri Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycanın 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməsi oldu. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri isə dövlətimizin suverenliyinin onun bütün ərazisində təmin olunması ilə nəticələndi. Tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı ilə yanaşı, həm də Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpasıdır. Daha dəqiq ifadə etsək, Qərbi Azərbaycana qayıdışdır.

Vurğulanıb ki, 2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı sistemli tədbirlərin keçirilməsinə başlanılıb, bu məqsədlə konsepsiya qəbul olunub. “Qərbi Azərbaycana qayıdış” festival-konqresi də cənab Prezidentin bu istiqamətdə müəyyənləşdirdiyi tapşırıqların icrası, xüsusilə də Qərbi Azərbaycanın tarixi, mədəni irsi və azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

*Ardı 2-ci səhifədə*

Səlahiyyətli nümayəndə tarixi faktlara istinad etməklə azərbaycanlıların deportasiyasının tarixin tam açılmamış və beynəlxalq səviyyədə hüquqi-siyasi qiymətini almamış səhifələrindən olduğunu diqqətə çatdıraraq deyib: "Təəssüf ki, xalqımıza qarşı törədilmiş etnik təmizləmə və deportasiya siyasəti müstəqilliyin ilk illərində lazımınca araşdırılmayıb. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ilk dəfə azərbaycanlıların deportasiyasına hüquqi-siyasi qiymət verib, 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalayıb".









"Bu gün hər bir Azərbaycan vətəndaşı möhtəşəm tarixi hadisələrə şahidlik edir. Dünya birliyində söz sahibinə çevrilən güclü və qüdrətli Azərbaycan yeni reallıqlar formalaşdırır", – deyən Fuad Nəcəfli bildirib ki, Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ata vəsiyyətinə əməl edərək torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da uğurla həyata keçirir. Artıq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük yol qət edilib. Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Hazırda Qərbi Azərbaycana Qayıdış Konsepsiyası üç prinsipə – tarixi faktlara, beynəlxalq hüquqa və sülhə əsaslanır. Ölkə Prezidentinin müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı görülən sistemli tədbirlərin davamı kimi bu gün Naxçıvanda keçirilən festival-konqres də ciddi mövzulara hədəflənib. Məqsəd deportasiyaya məruz qalmış soydaşlarımızın hüquqlarının bərpası, Qərbi Azərbaycanda etno-mədəni terrora məruz qalmış tarixi-mədəni irsimizlə bağlı faktların ortaya qoyulması və dünya elmi ictimaiyyətinə çatdırılmasından ibarətdir.







Səlahiyyətli nümayəndə qarşıya qoyulan vəzifələrin icrasında tədbir iştirakçılarına uğurlar arzulayaraq "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin təşkilatçılarına, dəvəti qəbul edib tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib. Fuad Nəcəfli çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin ***"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"*** fikirləri ilə tamamlayıb.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək bildirib ki, sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycanda 1922-23-cü illərdə 36, 1924-cü ildə 62, 1929-30-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərib. Həmin dövrdə 113 Azərbaycandilli məktəbəqədər təhsil müəssisəsi də mövcud olub. 1981-1982-ci tədris ilində Qərbi Azərbaycanda 155 Azərbaycandilli məktəb, 1986-1987-ci tədris ilində isə 206 Azərbaycandilli məktəb fəaliyyət göstərib. Nazir vurğulayıb ki, Qərbi Azərbaycandakı Azərbaycan məktəblərinin məzunları arasından elmin müxtəlif sahələrini əhatə edən 10 akademik, akademiyanın 9 müxbir üzvü, 140 elmlər doktoru və 740 elmlər namizədi yetişib. Emin Əmrullayev ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsinin çox əhəmiyyətli olduğunu bildirib. Azərbaycanın elm, təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin araşdırılması sahəsində ardıcıl, sistemli tədqiqatların aparılması və elmi-tarixi, nəzəri əsərlərin yaradılması zərurətini qeyd edib.





Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında vurğulayıb ki, Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımıza məxsus tarixi faktlar, ədəbi-mədəni dəyərlər, folklor nümunələri, toponimika məlumatları, o yurd yerlərindəki tarixi-mədəni abidələr barədə məlumatların tədqiq olunması ziyalıların, elm adamlarının qarşısında duran mühüm vəzifələrdir. Bu baxımdan keçirilən festival-konqres mühüm əhəmiyyət kəsb edir. Konqresdə 200-dək elmi çıxışlar olacaq və onlar toplanaraq nəşr olunacaq. Burada yer alan tarixi-mədəni faktlar qərbi azərbaycanlıların layiqli və ədalətli şəkildə yurdlarına qovuşmasını təmin edəcək, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına mühüm töhfə olacaq.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qeyd edib ki, Prezident cənab İlham Əliyevin qərbi azərbaycanlılar məsələsində daim nümayiş etdirdiyi prinsipial mövqe, onların hüquqlarının bərpa olunmasına və öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstək ifadə etməsi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını hazırlamaqla bağlı tapşırıqları tarixi torpaqlarımıza dönüş uğrunda səylərə yeni təkan verib: "1987-1991-ci illərdə baş vermiş sonuncu deportasiya zamanı Qərbi Azərbaycandakı 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayıb, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edib. Bütövlükdə, 300-ə yaxın yaşayış məntəqəsində azərbaycanlı soydaşlarımız yaşayıbar. Lakin, təəssüf ki, onların hamısı ermənilərə xas üsul və metodlarla sonuncu nəfərinə qədər Qərbi Azərbaycandakı ata-baba yurdlarından qovulublar. Bu prosesdə 200-dən çox soydaşımız ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib, 400-dən artıq insanımız bədən xəsarəti alıb. 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vurulub ki, beynəlxalq qiymətləndirmə standartlarına görə, bu gün həmin ziyanın məbləği 700 milyard ABŞ dolları həcmindədir. Yeraltı-yerüstü sərvətləri, tarixi-mədəni abidələrə vurulan ziyanı da bura əlavə etsək, yəqin ki, bu ziyan bir neçə dəfə artar. Mənəvi ziyanı isə heç bir məbləğlə əvəz etmək olmaz", – deyə Əziz Ələkbərli vurğulayıb.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva çıxış edərək beynəlxalq hüquqda xalqın tarixən yaşadığı doğma yurdundan zorla çıxarılmasının cinayət əməli hesab olunduğunu diqqətə çatdırıb. Ombudsman bildirib ki, soydaşlarımızın Qərbi Azərbaycan torpaqlarından zorla çıxarılması və etnik təmizləmə siyasətini yerinə yetirənlər beynəlxalq müstəvidə cinayət məsuliyyətinə cəlb olunmalıdır: "Ermənistan tərəfi 4 minə yaxın itkin düşmüş soydaşlarımızla bağlı sorğularımıza cavab və minalanmış ərazilərimizlə bağlı heç bir məlumat vermir. Bu isə işğaldan azad olunmuş ərazilərimizə qayıdış və quruculuq prosesini ləngidir. Bundan başqa, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan 30 ildir, blokada şəraitində yaşayır. Üçtərəfli Bəyanatda öz əksini tapan Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında kommunikasiyaların təmin olunması müxtəlif bəhanələrlə təmin edilmir". Səbinə Əliyeva beynəlxalq təşkilatlara səslənərək Azərbaycana qarşı ədalətli mövqe göstərməyə, qərbi azərbaycanlıların ləyaqətli və tam təhlükəsiz qayıdışına səssiz qalmamağa çağırıb.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynova vurğulayıb ki, toponimləri və folklor nümunələrini öyrənməklə Qərbi Azərbaycan torpaqlarının tarixən Azərbaycan türklərinə məxsus olduğunu sübut etmək mümkündür. Alim qeyd edib ki, yüzlərlə bu xüsusda olan yer adlarını, tarixi faktları saxtalaşdırmaq heç nəyi dəyişmir. Çünki Azərbaycan xalqı yaşayır və öz tarixinə sahib çıxır: "Hesab edirəm ki, elmi konqres soydaşlarımızın min illərlə məskunlaşdığı, tarixi və təbii sərhədləri daxilində böyük maddi-mənəvi dəyərlərin nümunələrini yaşatmış xalqımızın son 200 ildə keçdiyi yolun bütün aspektlərdə əsl mənzərəsini ortaya qoyacaq. Hər kəs elmi tədqiqatların təkzibolunmaz faktlarla ortaya qoyduğu məruzələrdə iki əsr müddətində geosiyasi vəziyyətlərin yaratdığı reallıqların ağrı-əzabları ilə yaşamış xalqımızın izlərini görə biləcək", – deyə Mahirə Hüseynova bildirib.

Tədbir bədii hissə ilə davam edib.







# Naxçıvanda Qərbi Azərbaycan kulinariyası təqdim olunub







Noyabrın 23-də Naxçıvanda keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresi çərçivəsində “Araz” Dövlət Qəbul Evində Qərbi Azərbaycan kulinariyasının təqdimatı olub.

Təqdimatda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası elm və təhsil naziri Emin Əmrullayev, dövlət və ictimaiyyət xadimləri, media mənsubları iştirak ediblər.

Sərgidə İrəvan mətbəxinə aid 40 adda yemək, 50-yə yaxın şirniyyat və mürəbbə, 30-a yaxın şərbət, doşab, xoşab, 100-ə yaxın meyvə, quru meyvə və tərəvəz, 50-dən çox müalicəvi bitki, 20 adda qış tədarükü qidası, 13 növdə müxtəlif çay nümunələri nümayiş etdirilib.

Naxçıvan Dövlət Universitetinin tələbələri Qərbi Azərbaycan ənənələri əsasında hazırladıqları səhnəcikləri təqdim ediblər.

# “Qərbi Azərbaycana qayıdış” festival-konqresi öz işini davam etdirib

Noyabrın 23-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında öz işini davam etdirən festival-konqresdə Qərbi Azərbaycana həsr olunmuş sərgiyə baxış olub. Sərgidə bu əzəli yurd yerimizə aid ədəbiyyat nümunələri, elmi araşdırmalar, məqalələr toplusu, rəsm əsərləri nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası elm və təhsil naziri Emin Əmrullayev, dövlət və ictimaiyyət xadimləri, media nümayəndələri sərgiyə baxıblar.

AMEA-nın müxbir üzvü, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri Misir Mərdanov Naxçıvanda keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresində çıxışı zamanı deyib: “Bu gün yaşadığımız qürurlu və sevincli günləri görmək üçün xalqımız 200 ildir ki, yaşadı, yaratdı, zəngin



adət-ənənələrini qoruyub saxladı. Vətən müharibəsindəki parlaq qələbəmiz sayəsində bu günləri görmək bizə nəsib oldu. Bu formatda ilk tədbirin məhz Naxçıvanda keçirilməsi təsadüfi deyil. Ulu Öndərimiz Heydər Əliyev başda olmaqla Azərbaycana böyük şəxsiyyətlər bəxş edən Naxçıvan həm də həmin çətin günlərdə qərbi azərbaycanlı soydaşlarımıza qucaq açıb. Təsadüfi deyil ki, deportasiyaya uğrayan qərbi azərbaycanlıların böyük əksəriyyəti Naxçıvanda məskunlaşıb”.

Türkiyə Respublikasının Hacettepe Universitetinin rektoru, professor Mehmet Cahit Güran çıxışında Qərbi Azərbaycan torpaqlarının yüz illər boyunca azərbaycanlıların yaşadığı ərazilər olduğunu vurğulayıb. Rektor qeyd edib ki, Ermənistan tərəfindən zaman-zaman aparılan deportasiya siyasəti azərbaycanlıları öz torpaqlarından didərgin salıb, hüquqları tapdalanıb. Bildirilib ki, bu gün










Ardı 4-cü səhifədə

"iki dövlət, bir millət, tək yumruq" müstəvisində bölgədə yeni bir güc yaranıb. Bu güc Qarabağ zəfərinə qovuşdurdu. Əminik ki, yeni reallıqlar qərbi azərbaycanlı soydaşlarımızın da hüququnu bərpa edəcək, onlar öz doğma yurdlarına dönəcəklər.

Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov bildirib ki, Prezident cənab İlham Əliyevin dəstəyi ilə Qərbi Azərbaycan İcmasının yaradılması Qarabağ zəfərindən sonra mühüm mərhələ təşkil edir. İcmanın ötən dövrdəki fəaliyyəti, verilən bəyanatlar, görülən tədbirlər qərbi azərbaycanlıların ləyaqətli və təhlükəsiz şəkildə yurduna qayıtmasına böyük hüquqi və təşkilati dəstək kimi diqqətəlayiqdir.

Türkiyənin Qazi Universitetinin rektoru,



professor Musa Yıldız, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Türkiyənin Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri Vahid Novruzov, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü Abel Məhərrəmov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti, professor Aygün Attar festivalda çıxış ediblər. Çıxışlarda festivalın işi Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına elmi yanaşma kimi yüksək qiymətləndirilib.

Tədbir bədii hissə ilə davam edib.

**"Şərq qapısı"**

## Festival-konqres iştirakçıları: " Naxçıvanda keçirilən festival-konqres sayəsində formalaşacaq düşüncənin, fəaliyyətin nəticəsində Qərbi Azərbaycana qayıtmaq arzumuz gerçəkləşəcək"



*Xəbər verdiyimiz kimi, noyabrın 23-də Naxçıvan Muxtar Respublikasında "Qərbi Azərbaycana qayıdış" adlı festival və "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı konqres öz işinə başlayıb. Festival-konqresin iştirakçıları Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının mahiyyəti, bu konsepsiyanın icrası istiqamətində görülmüş və görüləcək işlər barədə fikirlərini "Şərq qapısı" qəzeti ilə bölüşüblər.*

***Səbinə Əliyeva – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman):*** – Bugünkü Qərbi Azərbaycana qayıdışa dair konqres olduqca aktual və əhəmiyyətli bir mövzuya həsr olunub. Çoxsaylı xaricdən gələn qonaqlarımız vardır. İllər ərzində azərbaycanlılara qarşı sırf onların etnik mənsubiyyətinə görə soyqırımı aktları törədilib.



Azərbaycanlılar etnik təmizləməyə məruz qalıb. Bizim yoldaşlarımız silsilə şəkildə, bir neçə dalğa deportasiya olunub, öz əzəli torpaqlarından, ata-baba yurdlarından qovulublar. Bütün fundamental hüquqlarından məhrum olublar. Bugünkü tədbir çox əhəmiyyətlidir, ona görə ki, biz hər fürsətdə çalışırıq ki, soydaşlarımızın haqq səsini dünya ictimaiyyətinə çatdıraq. Həmçinin I Qarabağ müharibəsindən sonra bu günə qədər Ermənistan tərəfi bizə dörd minə yaxın soydaşımızın taleyi barədə heç bir məlumat vermədi. Bizim elə analarımız var ki, 4 övladının xəbərini ala bilmir. Elə soydaşlarımız var ki, 6,7,10 nəfər ailə üzvündən xəbər ala bilmir. Təəssüf ki, Azərbaycana qarşı ikili standartlar bu gün də davam etdirilir və Ermənistana qarşı heç bir təsir göstərilmir.

***Əziz Ələkbərli – Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı:*** – Biz bugünkü tədbirə qədər də bir sıra xarici ölkələrdə konfranslar keçirmişik. Bu Azərbaycan ərazisində Qərbi Azərbaycana qayıdışla bağlı keçirilən ilk konfransdır. Və bu konfransa təkcə azərbaycanlı ziyalılar, millət vəkilləri, ictimai xadimlər, dövlət adamları deyil, eyni zamanda xarici ölkələrdən xeyli qonaqlar dəvət olunub. Onlar həm panel çıxışlarında, həm də bölmə iclaslarında Azərbaycanın tarixi, coğrafiyası, mədəni irsi ilə bağlı məruzələrlə çıxış edəcəklər. Bizim də Qərbi Azərbaycan İcması olaraq Naxçıvanın müxtəlif bölgələrində Qərbi Azərbaycan əsilli insanlarla görüşlərimiz nəzərdə tutulub. Bu görüşlərdən biri Ordubad rayonunda təşkil olunacaq. Xüsusilə Ordubadın Parağa kəndində sonuncu deportasiya zamanı – 1987-1991-ci illərdə Qərbi Azərbaycanın tarixi mahallarından olan Dərələyəzdən xeyli sayda qaçqın məskunlaşır. Eyni zamanda Çalxanqala kəndində də bizim görüşlərimiz planlaşdırılıb. Biz nəzərdə tutmuşuq ki, bu festival Naxçıvan ərazisində hər il keçirilsin. Belə konfrans və festivalların Azərbaycan Respublikasının müxtəlif rayonlarında keçirilməsi nəzərdə tutulub. Elə hesab edirik ki, həm bu konfrans, həm də gələcək konfranslar Qərbi Azərbaycana Qaydış Konsepsiyası yolunda çox mühüm bir mərhələdir. Bu Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində irəliyə atılmış növbəti addımlardan biridir. Azərbaycanın bütün bölgələrində Qərbi Azərbaycan İcmasının nümayəndəlikləri açılır. Məqsəd insanlarımızı Qərbi Azərbaycana qayıdış ideyası ətrafında birləşdirib, onların bu ideaya uğrunda mübarizəyə qoşulmasını təmin etməkdir.

***Elbrus İsayev – Naxçıvan Dövlət Universitetinin rektoru:*** – 23-24 noyabr tarixləri Naxçıvan tarixində Qərbi Azərbaycan festival-konqres günləri kimi qalacaq. Doğrudan da, bu tədbir üçün möhtəşəm proqram hazırlanıb. Bu gün bizim el-obamız olan qədim yurd yerlərimizə, elmə, mədəniyyətə həsr olunmuş və respublikamızın ziyalı ictimaiyyəti, ali təhsil müəssisələrinin rəhbərlərinin, tədqiqatçılarının iştirakı ilə belə bir festival-konqres ərsəyə gəlib. Bu konqresə Naxçıvana vaxtilə zorla köçürülmüş Qərbi Azərbaycan əsilli vətəndaşlar və ziyalılar qatılıb. Festivalın tərkibi zəngindir, iki gün ərzində festival



və sərgi ilə bərabər film nümayişləri, kitab təqdimatları, eyni zamanda Qərbi Azərbaycan folklor nümunələrindən ibarət bədii kompozisiya, konsert proqramları nümayiş olunacaq. Biz ümidvarıq ki, bu gün və sabah keçirilən konqresdə səslənən elmi iddialar, tədqiqatlar, Qərbi Azərbaycanla bağlı hazırlanmış yeni tədqiqat mövzuları Qayıdış Konsepsiyasına uyğun olacaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdışdan sonra Qərbi Azərbaycan İcması ilə görüşü və Qərbi Azərbaycana Qayıdış Konsepsiyası üzərində strateji proqram xarakterli çıxışları bizim üçün əsas sənəddir. Bu sənədin işığında ali təhsil müəssisəsi olaraq gələcəkdə elmi-tədqiqat yolu ilə yeni əsərlər, kitablar ərsəyə gətirib, qədim gözəl obanın sakinlərinin öz doğma torpaqlarına qayıdışının elm yolu ilə ədalətlə təmin olunmasını hədəfləyirik. Uğurlar arzulayıram.

***Fəxriyə Xələfova – azərbaycanlı rəssam-modelyer, Əməkdar incəsənət xadimi:*** – Qədim Naxçıvan torpağını çox sevirəm. Bura ilə bağlı akademik Rəfiqə xanım Əliyevadan eşitdiyim bir çox xatirələr var. Dövlət başçısı cənab İlham Əliyevin Qərbi Azərbaycan İcması ilə görüşünə bütün ictimaiyyət maraq göstərdi. Bu gün bura dəvət olunan Qərbi Azərbaycan İcmasının üzvləri, təhsil, mədəniyyət, incəsənət istiqamətlərində çalışan insanlardır ki, həm indi, həm də yaxın gələcəkdə hərəsi öz istiqamətində Qərbi Azərbaycan mövzusuna aid yaradıcı işlər təqdim edəcəklər. Yeni musiqi kompozisiyaları yazılacaq, yeni rəsm əsərləri çəkiləcək və mənim təmsil etdiyim modageyim istehsalı istiqaməti çərçivəsində mən də üzərimə düşəni edəcəyəm. Məhz bu festival üçün Qərbi Azərbaycan milli geyimlərinin elementlərini və əsasən də, rənglərinin sintezini təşkil edən geyim kolleksiyası iştirakçılara təqdim edirəm. Bu mənim üçün də başlanğıc mərhələdir. Qərbi Azərbaycandan deportasiya olunan xanım soydaşlarımızla söhbət edirəm, onların nənələrinin geyimləri ilə maraqlanıram. Qeyd edim ki, İrəvan xanlığında geyimlər çox gözəl olub. Rəngləri, harmoniyaları dərk etmək üçün bir sıra rəsmlərə müraciət edirəm. Hələlik, mənbə olaraq mən Sərdar sarayının timsalında geyimlərin rəng çalarlarını, oradakı naxışları, epizodları istifadə etmişəm. Burada təqdim etdiyimiz kolleksiya mənim yaradıcılığımda ilkdir. Qərbi Azərbaycanla bağlı milli geyim istiqamətində görəcəyim işlər hələ qabaqdadır.



***Abel Məhərrəmov – Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının üzvü:*** – Hesab edirəm ki, Naxçıvanda keçirilən bu tədbir Qərbi Azərbaycan İcmasının ən zirvə tədbirlərindəndir və Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına yeni bir impuls verəcək. Naxçıvan və Qərbi Azərbaycan arasında region yaxınlığı səbəbindən tarixən ədəbi, maarifçilik, elmi, işgüzar əlaqələr mövcud olub. Qərbi azərbaycanlıların dörd dəfə deportasiya olunması proseslərini Naxçıvanda daha yaxşı bilirlər. Çünki Naxçıvanda da deportasiyaya məruz qalan qərbi azərbaycanlılar yaşayır. Ona görə də konqresin Naxçıvanda keçirilməsinin praktiki, nəzəri, tarixi, ideoloji əhəmiyyəti vardır. Bu tədbir milli təəssübkeşlik, milli dünyagörüşü, milli yetkinliyi formalaşdırmaq məqsədinə xidmət edir. İnsanlarda da böyük inam var. 44 günlük müharibə, 23 saatlıq antiterror əməliyyatları reallıqdır. Dövlət-xalq birliyi güclü olanda istənilən məsələnin öhdəsindən gəlmək mümkündür.




Bundan sonra üzərimizə düşən vəzifə Qərbi Azərbaycan konsepsiyası barədə yazıb-yaratmaq, yazdıqlarımızı müxtəlif xarici dillərə tərcümə etməkdir. Əminəm ki, Naxçıvanda keçirilən festival-konqres insanlarda yeni düşüncə, yeni fəaliyyət formalaşdıracaq. Fəaliyyətin nəticəsində isə Qərbi Azərbaycana qayıtmaq arzumuz gerçəkləşəcək.

***Misir Mərdanov – Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü:*** – Çox möhtəşəm bir tədbir keçirildi. İndiyə kimi icmanın müxtəlif tədbirləri olmuşdur. İlk dəfə olaraq icmanın bu qədər böyük bir tədbiri Naxçıvanda keçirildi. Bu tədbirin məhz Naxçıvanda keçirilməsinin səbəbi bu yerin qədim və zəngin tarixə malik doğma bir diyar olmasıdır. Bura Azərbaycana Heydər Əliyev kimi dahi bir şəxsiyyət verib. Heydər Əliyev Naxçıvana gələn zaman Naxçıvan əhalisi tərəfindən böyük dəstək göstərilmişdir. Coğrafi baxımdan Naxçıvan Muxtar Respublikası Ermənistana ən yaxın ərazidir. Belə bir möhtəşəm tədbirin burada keçirilməsi çox doğru atılmış addımdır və bu işi davam etdirmək lazımdır.

Bu elmi əsasdan çox siyasi məsələdir. Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin Qarabağ savaşını Azərbaycanın xeyrinə 44 gün ərzində başa çatdırdıqdan sonra Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının siyasi yolla reallaşdırılması təşəbbüsü ilə çıxış etdi. Məqsədimiz Qərbi Azərbaycana, öz ata-baba torpaqlarımıza sülh yolu ilə qayıtmaqdır. Buna tam əminəm. Soydaşlarımızın öz yurd yerlərinə qayıtması üçün tarixi həqiqətləri beynəlxalq ictimaiyyətə yetərincə çatdırmalı, beynəlxalq hüquq prinsiplərindən çıxış etməliyik.

***Nurəddin Mehdixanlı – Azərbaycan Respublikasının Xalq artisti:*** – İndi tarix təkrar olunur. Bütün sahələrdə elmdə, mədəniyyətdə, hərbdə bizim bütün fəaliyyətlərimiz əxlaqa söykənən, insanlığa söykənən fəaliyyətdir. Biz kimsənin heç nəyinə sahib çıxmaq iddiasında deyilik, doğma torpaqlarımıza qayıtmaq istəyirik. Mən düşünürəm ki, bu günlər Naxçıvanda Qərbi Azərbaycan barədə xalqımızın hədəfləri açıq şəkildə ortaya qoyuldu. Hələ Azərbaycanın üçrəngli Dövlət Bayrağının dalğalanacağı çox zirvələr var. Burada baş tutan bu tədbir bir mesajdır. Biz Vətənimizə qayıtmaq istəyirik. Vətənimizdən Vətənə... İrəvan, Göyçə, Dərələyəz, Zəngəzur bizim tarixi torpaqlarımızdır. Biz kimsənin torpağına iddialı deyilik, amma tarix hər şeyi yavaş-yavaş öz yerinə qoyur. Bu gün qərbi azərbaycanlılar Naxçıvanda toplaşıb. Bu bizim milli həmrəyliyimizin ən gözəl nümunəsidir. Hər bir azərbaycanlı fəxr etməlidir ki, böyük bir millətin övladıdır. Allah millətimizi var etsin.

**✍ Nail ƏSGƏROV**
**✍ Gülcamal TAHİROVA**
**✍ Aidə İBRAHİMOVA**

### *İtmişdir*

Culfa rayonunun Milax kəndində yaşamış Sadiqov Məmməd Bəylər oğlunun adına olan JN-83A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 676